**UOT 016:82-131(479.24)**
**KBT Ш20(2A)-611**

# Müstəqillik dövründə "Kitabi-Dədə Qorqud" dastanı üzrə hazırlanan biblioqrafik mənbələr

**N.İ.İsmayılov, H.H.Qasımlı**
kafedra_biblioqraf@mail.ru
bdu.kitfak@inbox.ru

**Xülasə:** *Məqalədə insan yaratdığı folklor nümunələri haqqında ətraflı məlumat verilmiş, folklor ədəbiyyatına dair biblioqrafik mənbələr təhlil edilmişdir.*

**Açar sözlər:** *epos, mənbə, biblioqrafik göstərici, Qorqudşünaslıq*
**Клюцевые слова:** *эпос, источник, библиографический указатель, Горгудоведения*
**Key words:** *epic, source, bibliographic index, Gorgudstudy*

..."Kitabi-Dədə qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir.
***Ümummilli lider Heydər Əliyev***

Azərbaycanda folklorşünaslığın, o cümlədən qorqudşünaslığın inkişafı, problemlərinin öyrənilməsi, tədqiqi və həlli kitabsız və kitabxanalarsız mümkün deyildir. Yalnız biblioqrafik informasiya sənəd kütləsini hərtərəfli araşdırır, onların daha mühüm nümunələrindən istifadə olunmasına kömək edir. Bu işdə informasiya müəssisələri kimi kitabxanaların rolu danılmazdır. Azərbaycan kitabxanaşünaslıq elminin banisi, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov yazır: *"Müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya mütəxəssislərinin ən mühüm vəzifəsi kitabxana sistemləridir"* [5].

Qorqudşünaslığın elmi biblioqrafiyasının hazırlanması sadəcə olaraq, bu sahədəki çalışmaların texniki göstəricilərinin siyahısının tərtib olunması kimi başa düşülməməlidir. Belə ki, qorqudşünaslıq sahəsi üzrə elmi tədqiqat işinində ədəbiyyat göstəricisi, istifadə olunmuş mənbələrin ünvanı baxımından siyahı kimi məqbul hesab edilsə də, qorqudşünaslığın müəyyən problemini araşdıran tədqiqatçının öz diqqətini biblioqrafik mənbənin incəliklərinə deyil daha çox araşdırma obyektinin üzərinə yönəltməsi daha təbii və başa düşüləndir. Bu

mənada qorqudşünaslığa dair elmi biblioqrafiyanın və biblioqrafik qaynaqların hazırlanması peşəkar biblioqraf yanaşması tələb edən mürəkkəb, çətin və olduqca maraqlı bir işdir. Burada bir çox amillərin, elmi prinsiplərin nəzərə alınması vacib və mühüm şərtdir. "Kitabi-Dədə Qorqud" eposuna dair biblioqrafik mənbənin hazırlanması üçün əhəmiyyətli olan ən əsas şərtləri aşağıdakı formada ümumiləşdirmək olar:

*- Azərbaycanda qorqudşünaslığın nəşri və tədqiqi tarixinə dərindən bələdliyin olması;*

*- Qorqudşünaslığın müxtəlif problemləri ilə məşğul olan mütəxəssislərlə yaxın əlaqənin saxlanması;*

*- Qorqudşünaslığa dair Azərbaycandan kənarda aparılan elmi təbliğat işlərinin müəyyənləşdirilməsi və üzə çıxarılması;*

*- Elmi biblioqrafiyanın tərtibinin müasir prinsip və formalarının dərindən bilinməsi və nəzərdə tutulan mövzuya tətbiqi.*

Yuxarıda qeyd olunan müddəa və şərtlərdən əlavə, biblioqrafın peşəkar səviyyəsinin yüksək olması, bu sahədə təcrübəli mütəxəssis kimi tanınması, öz işinə ciddi və məsuliyyətli yanaşması da nəzərdə tutulan işin uğurlu nəticələnməsində həlledici rol oynayan əsas amillərdən biridir.

Müstəqillik illərində nəşr edilən və folklorşünaslığa dair, xüsusilə folklor ədəbiyyatı içərisində öz zənginliyi ilə fərqlənən, milli-mənəvi sərvətimiz olan "Kitabi-Dədə Qorqud"a həsr edilən ilkin biblioqrafik mənbələrdən biri 1999-cu ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin müəllimləri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Şəhla Quliyeva və tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqova tərəfindən tərtib olunmuş, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin elmi redaktorluğu ilə hazırlanmış *"Kitabi-Dədə Qorqud" dastanının Bakı Dövlət Universitetində tədqiqi"* adlı biblioqrafik göstəricidir. Bakı Universiteti nəşriyyatı tərəfindən çap edilən 74 səhifədən ibarət olan bu kitab Bakı Dövlət Universitetinin professoru, AMEA-nın müxbir üzvi, filologiya elmləri doktoru Nizami Cəfərov və Bakı Dövlət Universitetinin "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, görkəmli bibliorafiyaşünas-alim, dəyərli ziyalı, fundamental tədqiqatçı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılovun rəyi əsasında nəşr olunmuşdur. Bakı Dövlət Universitetinin elmi-pedaqoji heyətinin ayrı-ayrı üzvlərinin bu sahədə gördüyü işləri üzə çıxarmaq, onları qorqudçünaslıqla maraqlanan informayisa tələbatçılarının sorğusunu təmin etmək məqsədi ilə tərtib olunmuşdur. Göstəricidə 229 mənbə haqqında məlumat verilmişdir [4, s.8].

Müstəqillik illərində tərtib edilən ən zəngin vəsaitlərdən biri də "Azərbaycan – 80" adlı biblioqrafik göstəricidir [3, s.138]. 80 illik bir dövrü əhatə edən (1923-2003) bu biblioqrafik vəsait "Azərbaycan" jurnalının 80 illik yubileyi ilə əlaqədar olaraq tərtib olunub, 2004-cü ildə "Çinar-çap" nəşriyyatında çap olunmuşdur.

Müstəqillik illərində nəşr edilən və folklorşünaslığa dair, xüsusilə folklor ədəbiyyat içərisində öz zənginliyi ilə fərqlənən, mənəvi sərvətimiz olan "Kitabi-Dədə Qorqud"a həsr edilən bu nəşr Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçiləri tərəfindən 2000-ci ildə tarix elmləri namizədi Aydın Xəlilovun tərtibi ilə çap olunmuşdur [3, s.138].

Azərbaycan xalqının zəngin tarix və mədəniyyət xəzinəsi olan "Kitabi-Dədə Qorqud"un mətninin nəşrləri və onun haqqında mövcud materiallar tam şəkildə təsvir edilərək biblioqrafiyaya daxil edilmişdir. Biblioqrafik göstəriciyə daxil edilmiş mənbələr dil əlamətinə görə bölmələrə ayrılmışdır. Hər bölmə daxilində "Kitabi-Dədə Qorqud"un nəşrləri", "Kitabi-Dədə Qorqud" haqqında ədəbiyyat" və "Kitabi-Dədə Qorqud" bədii ədəbiyyatda" adlı yarımbölmələr əhatə edilmişdir [1]. Hər yarımbölmə daxilində materiallar müəlliflərin soyadlarını əlifba sırası ilə qruplaşdırılmışdır.

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar olaraq çap edilmiş bu biblioqrafik göstəricidə çox zəngin materialların əks olunmasına baxmayaraq hər bir mənbənin sıralanmaması və köməkçi aparatla təchiz edilməməsi təəssüf hissi doğurur. Buna baxmayaraq Azərbaycan, türk və türk xalqlarının dillərində, rus dilində, digər xarici ölkə dillərində olan materialları əhatə etdiyinə görə bu qiymətli informasiya mənbəyi dəyərli bir vəsait kimi qorqudşünaslığın informasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan folklorşünaslığında, eləcə də qorqudşünaslıqda "Kitabi-Dədə Qorqud" eposunun biblioqrafik qaynaqları içərisində *"Azərbaycan folkloru"* adlı biblioqrafik göstərici də mühüm mənbələrdən biridir.

Mövzu xarakterli bibiloqrafik mənbə kimi bu nəşr, Azərbaycan folkloruna və Qorqudşünaslığa həsr olunmuş ilk fundamental biblioqrafik qaynaqlardan biridir [2; 4]. Belə ki, biblioqrafik vəsaitin tərtibinin əsas məqsədi qədim dövrlərdən müasir zamanəmizə qədər gəlib çatmış zəngin Azərbaycan folklorunun bütün sahələrinə, eləcə də "Kitabi-Dədə Qorqud"a həsr olunmuş çap əsərlərini toplayaraq ərsəyə gətirmək olmuşdur. Kitabın tərtibçi-müəllifi görkəmli kitabşünas və folklorşünas alim, filologiya elmləri doktoru, professor Aybəniz Əliyeva-Kəngərlidir. Biblioqrafik göstərici 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında hazırlanaraq çap edilmişdir. O, aşağıdakı strukturda tərtib edilmişdir: *Azərbaycan folkloru haqqında Azərbaycan Respublikası Prezidentinin qanun, fərman və sərəncamları; Azərbaycan folklorşünaslarının müxtəlif elmi tədbirlərdəki məruzə və çıxışları; Azərbaycan folklorşünaslığı üzrə müdafiə edilmiş dissertasiyalar; Azərbaycan folklorşünaslığı tarixi; folklor araşdırmaları; folklor nəşrləri; Azərbaycan folklorunun ayrı-ayrı janr və növləri; Azərbaycan dastanları; "Kitabi-Dədə Qorqud"; "Kitabi-Dədə Qorqud - 1300"; Azərbaycan nağılları; aforizmlər və müdrik sözlər; xalq oyunları və tamaşaları; mərasimlər; müəlliflərin əlifba göstəricisi və əsərlərin əlifba göstəricisi.*

Göstərilən strukdurdan da göründüyü kimi kitabda "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı materiallara xüsusi önəm verilmişdir.

Azərbaycan ədəbiyyatşünaslığının mühüm bir istiqamətini təşkil edən folklorşünaslığın, eləcə də qorqudşünaslığın biblioqrafik informasiya mənbələri müstəqil tədqiqat obyekti olmadığından "Kitabi-Dədə Qorqud" eposunu özündə əks etdirən mövzu biblioqrafik vəsaitin olmaması təəssüf doğurur. Ümidvarıq ki, Azərbaycan ədəbiyyatı tarixini, şifahi xalq ədəbiyyatını, ümumilikdə folklorşünaslıq və qorqudşünaslıq məsələlərini işıqlandıran biblioqrafik informasiya mənbələrinin yaradılması prosesi bundan sonra da davam etdiriləcəkdir.

**Ədəbiyyat**

1. "Azərbaycan-80": Biblioqrafik göstərici /Tərt. ed.: Ə.Əfəndiyev; elmi red.: B.Nəbiyev. B.: Çinar-çap, 2004, 544 s.
2. Azərbaycan folkloru: biblioqrafik göstərici. Bakı, 2011, 484 s.
3. İsmayılova S. Müstəqillik illərində folklorşünaslıq biblioqrafik mənbələrdə// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal, 2009, №1, s.132-140
4. Quliyeva Ş., Sadıqova S. "Kitabi-Dədə Qorqud" dastanının Bakı Dövlət Universitetində tədqiqi: biblioqrafik göstərici. Bakı, 1999, 74 s.
5. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri// Respublika, 2002, 17 aprel.

## Библиографические ресурсы эпоса "Книга Деде Коркут" в годы независимости

Н.И.Исмаилов, Г.Г.Гасымлы

### РЕЗЮМЕ

*В этой статье были даны исчерпывающую информацию о фольклоре, созданный людьми, примеры фольклора, библиографические источники свидетельствуют фольклор литература были проанализированы.*

## Bibliographic resources of "Book of Dede Korkut" epic in years of independence

N.I.Ismayilov, H.H.Gasymly

### SUMMARY

*In this article were given comprehensive information about folk-lore created by people, examples of folklore, bibliographic sources show folklore literature have been analysed.*